***Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun 30 illik işğala son qoyaraq torpaqlarımızı azad etməsi dövlətçilik tariximizin şanlı səhifəsidir. Azərbaycanın haqlı mübarizəsinin nəticəsi olan bu zəfər ölkəmizi bütövləşdirdi, dünya birliyindəki nüfuzunu daha da artırdı, mövqeyini möhkəmləndirdi. Hazırda respublikamız dünyada qalib, ərazisini öz ordusunun gücü ilə düşməndən azad edən ölkə kimi qəbul edilir. Bu şanlı qələbə 30 il davam edən beynəlxalq riyakarlığa, ikili standartlara meydan oxudu. Dünyanın ən güclü dövlətlərinin, o cümlədən, nüfuzlu beynəlxalq qurumların 30 il ərzində nizamlaya bilmədikləri və ya nizamlamaq istəmədikləri münaqişəni Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində həll etdi. Dünya birliyinə sübut etdi ki, bu problemin hərbi-siyasi yolla aradan qaldırılması mümkün imiş.***

# Tarixi qələbə ölkəmizin qarşısında yeni imkanlar açıb

Bu şanl qələbə bir daha sübut etdi ki, münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupu məsələnin həllinə yox, dondurulmasına çalışırmış. Məhz bu siyasətin – islamofobiyanın, ermənipərəstliyin və riyakarlığın nəticəsi olaraq, illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Bu illər ərzində işğalçını bir dəfə də olsun öz adı ilə çağırmayan Minsk qrupu həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə fərq qoymamışdır. Erməni faşistləri də bu riyakarlıqdan, beynəlxalq birliyin ədalətsizliyə göz yummasından istifadə edərək daha da həyasızlaşmış və nəticədə 2020-ci il sentyabrın 27-də genişmiqyaslı təxribatlar törədərək ölkəmizə qarşı açıq şəkildə müharibəyə başladı.

Təbii ki, işğalçı Ermənistanın bu hegemonluğu daimi ola bilməzdi. Artıq bu dəfə qarşılarında güclü Azərbaycan Ordusunu gördülər və elə müharibənin ilk günündən silah-sursatı atıb qaçdılar. 44 gün ərzində Azərbaycan Ordusu düşməni darmadağın etdi. Ermənistanın hərbi və siyasi rəhbərliyi vəziyyətin getdikcə daha da ağırlaşdığını görüb 2020-ci il noyabrın 10-da diz çökdü və kapitulyasiya sənədini imzalamağa məcbur oldu. Bu tarixi qələbə Azərbaycanı dünya birliyinə daha yaxından tanıtdı və ölkəmizin qarşısında yeni imkanlar açdı.

**(ardı 3-cü səhifədə)**

# Tarixi qələbə ölkəmizin qarşısında yeni imkanlar açıb



*(əvvəli 1-ci səhifədə)*

Vətən müharibəsində qazandığımız qələbədən sonra ölkəmizin qarşısında duran prioritet vəzifə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin müasir tələblərə cavab verən yüksək keyfiyyətdə və qısa müddətdə həyata keçirilməsi idi. Otuz ilə yaxın erməni işğalı altında olan ərazilərə baxış keçirilərkən dünyada misli görünməmiş barbarlığın baş verdiyi məlum oldu. Qələbədən bir həftə sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş ərazilərə səfərlərə başladılar və həmin gün Qarabağda yenidənqurma, bərpa-quruculuq işlərinin təməli qoyuldu.

Yeri gəlmişkən, dövlət başçımızın bu şad xəbəri verərkən səsləndirdiyi fikirləri bir daha xatırlatmaq istərdik: "Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli–Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq – ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri".

Qeyd etdiyimiz kimi, şanlı qələbə ölkəmizin qarşısında yeni imkanlar açdı. Həmin vaxtdan başlanan genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri dünyada əks-səda verdi. Çətin relyefə malik ərazilərdə hava limanlarının tikilməsi sanki bir əfsanə idi. Ancaq Qarabağda hava limanlarının tikilməsi ən zəruri məsələlərdən idi. Həm də iqtisadi baxımdan vacib idi. Çünki Qarabağın, eləcə də, Şərqi Zəngəzurun böyük iqtisadi potensialı var. Bu potensialın reallaşması xüsusilə, həmin ərazilərimizdə istehsal ediləcək məhsulların xarici bazarlara ixrac edilməsi baxımından hava limanlarına ehtiyac var idi. Qarabağda hava limanlarının inşası regionun, habelə Şərqi Zəngəzurun turizm imkanlarının reallaşmasına da xüsusi töhfə verəcəkdi. Digər tərəfdən, həm Füzuli, həm də Zəngilan hava limanları, həmçinin infrastruktur vasitəsilə Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Bu da daha geniş anlamda Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya deməkdir. Nəticə etibarilə, Azərbaycan vasitəsilə daşınan beynəlxalq yüklərin həcminin artmasına imkan yaranacaq. Dövlətimizin başçısı da bunun vacibliyini bildirmişdi: "Füzuli, Zəngilan və Laçın hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək".

Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə və dünyada ən tez inşa edilən aeroportlardan biridir. Bu liman cəmi 8 ay ərzində inşa edildi. Ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıdacağının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə, bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq. Zəngilan və Laçın rayonlarında da beynəlxalq hava limanlarının inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək.

Bundan sonra bir-birinin ardınca təməli qoyulan və qısa müddətdə təhvil verilən yeni obyektlər beynəlxalq aləmdə böyük maraq doğurdu və Qarabağda bərpa-quruculuq işlərində iştirak etmək istəyən şirkətlərin diqqətini cəlb etdi. Bu istiqamətdə həyata keçirilən işlərdə xarici şirkətlərin də iştirakı reallığa çevrilib. Prezident İlham Əliyev də çıxışlarında quruculuq işlərinin aparılmasına dost ölkələrin şirkətlərinin də cəlb olunacağını qeyd etmişdi. Artıq Qarabağda yenidənqurma işlərinə bir sıra ölkələrə məxsus şirkətlər qoşulub. İlk növbədə, qardaş Türkiyə həm müharibə dönəmində, həm də postmüharibə zamanında Azərbaycana dəstəyini əsirgəmədi. Türkiyəyə məxsus olan şirkətlər Qarabağda görülən işlərdə də ilk olaraq özlərini göstərdilər.

Yenidənqurma işlərində respublikamızın yanında olan ölkələrdən biri də İtaliyadır. Bu ölkəyə məxsus şirkətlər postmüharibə dövründə quruculuq işlərində fəal şəkildə iştirakda maraqlı olduqlarını bəyan ediblər. Artıq "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. İngiltərəyə məxsus, nəhəng enerji şirkətlərindən olan "BP"də Qarabağda quruculuq işlərində pay sahibi olacağını bildirib. Çin şirkətləri artıq Qarabağda yenidənqurma işlərində fəal iştirak edirlər. Bunu rəsmi Pekinin ölkəmizdəki səfiri Qo Min də təsdiq edib. İsrail şirkətlərinin də Qarabağa yatırım etməkdə maraqlı olduğu dəfələrlə bildirilib. Bundan əlavə, "ağıllı kənd" layihəsində israilli mütəxəssislərin də çalışdığı məlumdur. Macarıstanın "EximBank"ı rekonstruksiya proqramında iştirak etmək niyyətində olan macar şirkətləri üçün 100 milyon dollar məbləğində kredit xətti açıb.

Cənubi Koreya şirkətlərinin Qarabağda fəaliyyət göstərəcəyi artıq dəqiqləşib. Belə ki, Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Sonq Azərbaycana səfəri zamanı "ağıllı kənd"lərin tikilməsində ölkəsinə məxsus şirkətlərin də iştirak edəcəyini bildirmişdi. Bundan başqa, Pakistan, Səudiyyə Ərəbistanı, İran, Ukrayna, ABŞ və Rusiya kimi ölkələrə məxsus şirkətlər də yenidənqurma və bərpa işlərində iştirak etməkdə maraqlı olduqlarını bildiriblər.

Hazırda Qarabağda sosial dəstək tədbirləri həyata keçirilir. Eyni zamanda, müharibədən sonrakı bərpa-yenidənqurma üçün bəzi planlar da reallaşdırılıb. Bu işlərin görülməsində ölkəmiz beynəlxalq donorların dəstəyindən çox, öz resurslarına güvənir. İlk növbədə, həmin ərazilər minalardan təmizlənib.

Acı da olsa, xatırladaq ki, müharibədən sonra 200-ə yaxın Azərbaycan vətəndaşı – mülki və hərbi vətəndaş ya həlak olub, ya da ki, ciddi yaralanıb. Ona görə də ərazilərin minalardan təmizlənməsi zəruri məsələlərdən biri idi. Bu işləri görmədən genişmiqyaslı qayıdış proqramına başlamaq olmazdı. İlk növbədə, infrastrukturun keçdiyi yerlər diqqət mərkəzində idi, yəni elektrik xətləri, avtomobil və dəmir yolları inşa ediləcək ərazilər təmizlənməli idi. Digər tərəfdən baş planı hazır olan şəhərlərin də minalardan təmizlənməsi prosesi sürətlə gedir. Xüsusilə, Şuşa və Ağdam şəhərlərində bu proses sürətlə aparılır. Təkcə o bölgələrdə – Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı – Ermənistanla həmsərhəd olan yerlərdə 700 kilometrə yaxın yol çəkilib. Eyni zamanda, elektrik təsərrüfatının yaradılması prosesi də uğurla gedir. Azad edilmiş bütün torpaqlarda bir ildə 7 yarımstansiya inşa edilməsi çox böyük uğurdur. Bu yarımstansiyalar ümumi dairəvi şəbəkəyə qoşulub.

Şəhərlərarası yolların inşasına start verilib. Göygöldən Kəlbəcərə uzunluğu 11 kilometrdən çox olan tunel çəkilir. Qışda bu yoldan istifadə etmək, demək olar ki, çox çətin idi. Kəlbəcər ilə Laçın arasında da 4 kilometr uzunluğu olan ikinci tunel inşa edilir. Bu tunel bizə Kəlbəcərə rahatlıqla Göygöl – Gəncə istiqamətindən gəlməyə imkan verəcək. Bununla, həm strateji, həm də vətəndaşların ora qayıtması nöqteyi-nəzərindən bütün məsələlər öz həllini tapacaq. Hazırda Bərdə –Ağdam avtomobil yolu da inşa edilir. Bundan başqa, Naftalanın Talış və Suqovuşanla birləşdirilməsi də yekunlaşmaq üzrədir. Bu, həm strateji, həm də turizm nöqteyi-nəzərindən çox önəmlidir. Çünki Naftalan hazırda beynəlxalq turizm mərkəzinə çevrilib və oradan Suqovuşan gölünə məsafə çox qısadır. Digər yollar, məsələn, Zəfər yolu adlandırılan Füzuli – Şuşa yolu bir ilə çəkilidi. İkinci magistral – Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Horadiz–Ağbənd, Zəngilan–Qubadlı–Laçın yolu, Laçın istiqamətində əlavə yolların çəkilməsi işi də davam etdirilir.

Qarabağda aparılan yenidənqurma, abadlıq-quruculuq işlərini sadalamaqla qurtarmaz. Təkcə yol, enerji strukturları deyil, məktəblərin, xəstəxanaların, yaşayış komplekslərinin təməli də qoyulur. "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri üzrə görülən işlər rəğbətlə qarşılanır. Özü də bütün bu işlər planlı şəkildə aparılır. Şuşa, Ağdam, Füzuli şəhərlərinin baş planı artıq hazırdır. Digər şəhərlərin də baş planlarının hazırlanması ilə bağlı müvafiq şirkətlərlə sazişlər imzalanıb.

Ötən ay Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasiminin keçirilməsi də bundan xəbər verir. Bu, mühüm əhəmiyyətli bir hadisədir. Həmin stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək. Stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Eyni zamanda, bu, Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaq. İstehsal gücü 240 meqavat olan stansiyada yeni iş yerləri yaradılacaq. Bu nəhəng layihə, həmçinin təbii qaza qənaətlə bağlı nəzərdə tutulan məsələləri də həll edəcək. O cümlədən, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində də əhəmiyyətli olacaq.

Şanlı qələbəmiz regionda yeni reallıqlar yaratmaqla yanaşı, region ölkələrinin və qonşu dövlətlərin qarşısında da daha perspektivli inkişaf istiqamətləri açıb. Azərbaycan daim konstruktiv əməkdaşlığın tərəfdarı olduğundan bu imkanlardan yetərincə yararlanacaq və beynəlxalq əməkdaşlığı daha da gücləndirəcək.

**Əliqismət BƏDƏLOV,**
***"Xalq qəzeti"***